**Embassy of the United States of America**
Office of Public Affairs
Baku, Azerbaijan

83, Azadlıq Prospekti
AZ1007 Bakı, Azerbaycan
Email: SeyidovaG@state.gov

Phone: +(99412) 498 03 35
Fax: +(99412) 498 93 12
URL: http://baku.usembassy.gov/


# MƏTBUAT ÜÇÜN AÇIQLAMA

**15 noyabr 2011**

## ABŞ universitetlərində təhsil alan azərbaycanlıların rekord sayı

Yeni tədqiqat göstərir ki, ABŞ universitet və kolleclərində rekord sayda azərbaycanlı tələbələr təhsil alır.

ABŞ Dövlət Departamentinin Təhsil və Mədniyyət İşləri üzrə Bürosunun dəstəyi ilə Beynəlxalq Təhsil İnstitutunun açıqladığı illik ***Açıq Qapılar (Open Doors) 2011*** hesabatına əsasən, 2010-2011 təhsil ilində ABŞ-ın ali təhsil müəssisələrində **440 azərbaycanlı tələbə** qeydiyyatdan keçmişdir ki, bu da 5 il bundan əvvəlki dövrlə müqayisədə **iki dəfə çoxdur**, və əvvəlki illə müqayisədə **8% artım**dır. Bu, ABŞ-da təhsil alan azərbaycanlı tələbələrin sayının artığını göstərən 4-cü ardıcıl ildir və ən yüksək göstəricidir.

Amerikada təhsil alan tələbələrin sayı əsasən Azərbaycanda fəaliyyət göstərən EducationUSA təmsilçiləri olan Bakı Təhsil Məlumat Mərkəzi (BTMM), Gəncə Təhsil Məlumat Mərkəzi (GTMM) və Sumqayıt EducationUSA Mərkəzinin fəallığı hesabına mümkün olmüşdur. Bu mərkəzlər tələbələrə dərəcə proqramları ilə təhsil almaq imkanları və maliyyə mənbələrinin araşdırılması haqqında geniş və yenilənən məlumat verirlər. Amerikada təhsil almaq istəyən tələbələr üçün BTMM və GTMM-də Education USA mərkəzləri ən müvafiq məktəbi seçmək üçün məsləhətləşmələr, test imtahanlarına hazırlıq, inşa və ərizələrin hazırlanmasında yardım və ABŞ universitetlərində müxtəlif imkanlar haqında taqdimatlar da daxil olmaqla bir çox resurs təklif edir. Onlar həmçinin ABŞ-ın maliyyələşdirdiyi təqaüd proqramları, o cümlədən

FLEX, Global Bakalavr Mübadilə Proqramı, the Edmund Muskie Təqaüd Proqramı, JFDP, Fulbright Proqramı və başqa proqramlar barədə tələbələri məlumatlandırırlar.

ABŞ Səfirliyinin İctimaiyyətlə Əlaqələr Şöbəsinin rəhbəri Viktoria Sloana əsasən, "Amerika təhsilinin prestiji və keyfiyyətinə görə xaricdə təhsil almaq istəyən azərbaycanlı tələbələrin əsas seçimlərindən biri olaraq qalır. Biz, Birləşmiş Ştatlarda daha çox azərbaycanlı tələbənin təhsil almasını görməyimizə şadıq, çünki bu, ölkələrimiz və vətəndaşlarımız arasında əlaqələri daha da gücləndirir". Digər mühüm amil Azərbaycandakı EducationUSA məsləhətləşmə mərkəzləri vasitəsilə ABŞ-da təhsil haqqında geniş və dəqiq məlumatın asan əldə edilə bilməsi və ABŞ kollec və universitetlərinin Azərbaycandan olan tələbələri cəlb etmək üçün artan fəaliyyətidir.

*Azərbaycandakı Amerika Təhsil Proqramları üzrə resurs mərkəzlərinin əlaqə məlumatları:*

**Bakı Təhsil Məlumat Mərkəzi:**
Caspian Business Center
40 C.Cabbarlı kuc, 3-cü mərtəbə
Bakı 1065 Azərbaycan
Tel.: +4482845/46;
email: office@beic.az
http://beic.az

**Gəncə Təhsil Məlumat Mərkəzi:**
Gəncə, 374700
Mirəli Qaşqay küç.10.
Phone: (99422) 56-30-25.
Fax: (99422) 56-30-26
kmirzayeva@kamilv.az;
www.qitc.aznet.org

**Sumqayıt EducationUSA Mərkəzi**:
3-cü mikrorayon, "Kosmos" Evi, 1-ci mərtəbə
tel: 994 64 24844;
email: gasgerova@beic.az

**IREX:**
Caspian Business Center
40 C.Cabbarlı kuc, 3-cü mərtəbə
Bakı 1065 Azərbaycan
Tel: +994 12 497 3902
http://irex.az

**Amerika Beynəlxalq Təhsil Şurası**
Caspian Business Center
40 C.Cabbarlı kuc, 3-cü mərtəbə
Bakı 1065 Azərbaycan
Tel/Fax: +994.12.436.7529/30/31
Office cell: +994.50.225.8178
http://americancouncils.az

###